

# Öləna qədər döyüşdü

## Son ana kimi heç kim onun yaralı olduğunu bilməyib

**Məlum olduğu kimi, Prezident, Ali Baş Komandan İlham Əliyev növbəti ad gününü Qubadlıda, əsgərlərlə birlikdə keçirdi. Əlbəttə, bu, rütbəsindən, vəzifəsindən asılı olmayaraq, bütün hərbi qulluqçular üçün sevindirici və fərəhləndirici xəbər idi. Eyni zamanda 44 günlük Vətən müharibəsi şəhidlərinin, o cümlədən Səbuhi Səmədovun da ruhu şad olmuşdu.**

Səbuhi 1985-ci il iyun ayının 23-də Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub. 1991-ci ildə Rafiq Gözəlov adına 1 saylı orta məktəbə daxil olub. 2003-cü ildə həmin məktəbi bitirib və hərbi xidmətə yollanıb. Ağdamın Əhmədağalılar kəndində, N saylı hərbi hissədə xidmət edib. 2005-ci ildə ordu sıralarından tərxis olunub. 2008-ci ildə ildə ailə qurub. Bir oğlu var.

**Qəhrəmanımız barədə daha ətraflı isə "Şərq"ə onun atası İbrahim Səmədov danışıb:** "Oğlum 2009-cu ildə gizir hazırlıq kursuna daxil olub. Ardınca N saylı hərbi hissədə tank bölüyünün komandiri kimi xidmətə başlayıb. O, 2016-cı ilin aprel döyüşlərində də iştirak etmişdi. Bu barədə əvvəlcədən heç birimizə deməmişdi, sonradan öyrənmişdik. 2016-cı ilin sonlarından Bakı şəhəri Müşviqabad qəsəbəsində N saylı hərbi hissədə fəaliyyətini davam etdirdi. Xidməti boyu 20-dən artıq fəxri fərmanla mükafatlandırılıb. Həmçinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 və 100 illiyi yubileyi münasibətilə müvafiq medallarla təltif olunub. Hərbidəki fəaliyyətinin 10-cu ilində isə yaxşı xidmətinə görə fəaliyyəti yüksək qiymətləndirilib.

2020-ci il sentyabr ayının 26-da müharibəyə göndərildi. Sonuncu dəfə oktyabrın 7-də danışmışdıq. Dedi ki, məndən narahat olmayın, hər şey yaxşıdı.

Hər kəsə salam göndərdi. Günortaya yaxın isə zəng çatmırdı. Döyüş yoldaşlarının dediyinə görə, o vaxt Səbuhinin tankı vurulmuş, mexaniki şəhid olmuşdu. Səbuhi yaralansa da, döyüşü davam etdirir. Növbəti gün, yəni oktyabrın 8-də başqa tankla müharibədə iştirak edir".

**Atasının dediyinə görə, oğlu son nəfəsinədək mübarizə aparır:** "O, Cəbrayıl rayonunda düşmənin bir tankını və onlarca canlı qüvvəsini məhv edir. Deyilənə görə, ermənilər həmin istiqaməti minamyotla intensiv atəşə tuturdu.

Səbuhi isə deyirmiş ki, öldü var, döndü yoxdur! Hətta ritorik sual verirdi: "Ermənilər kimdir, onlardan qorxaq?!". Beləliklə, yoldaşlarında ruh yüksəkliyi yaradırdı. Komandirinin söylədiyinə görə, Səbuhinin tankında qəfil nəsə nasazlıq yaranır. Ona görə avtomatla açıq döyüşə girir və təkbaşına irəli gedir.

### Qəhrəman tankçı döyüş yoldaşlarının qolları arasında keçinib

Digərləri ondan çox arxada olub. Növbəti minamyot mərmisi Səbuhinin düz yanına düşür. Oğlum yerə yıxılır. Yoldaşları yanına çatanda nəfəsinin gəlmədiyini görüb, süni nəfəs verirlər.

Özünə gələndən sonra tankla geri qayıdırlar. Fəqət Səbuhi çox mübarizə apara bilmir. Döyüş yoldaşlarının qolları arasında keçinir.

Hərbi hissə rəhbərliyinin sözlərinə görə, oğlum əməliyyatlarda çox böyük şücaət göstərib və son anadək heç kim onun yaralı olduğunu bilməyib".

**Kənan Novruzov**